# DİQQƏT! DİQQƏT!

Tələbələrin nəzərinə!

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üçün Dövlət Proqramı üzrə Tədbirlər Planında tələbələrə smart tələbə kartlarının verilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinə əsas icraçı olaraq tapşırılmış və Azərbaycan Respublikası Mərkəzi Bankının dəstəyi ilə ali və orta ixtisas təhsili alan bütün tələbələrə vahid formada hazırlanmış “Azərbaycan Təhsil Kartı”nın verilməsi qərarı alınmışdır.

Lənkəran Dövlət Universiteti bu ali təhsil ocağında təhsil alan tələbələrə istifadə imkanları geniş olan “Azərbaycan Təhsil Kartı”nın təqdim olunmasını həyata keçirir.

“Azərbaycan Təhsil Kartı” ilə tələbələrimizə aşağıdakı imkanları yaratmaq nəzərdə tutulmuşdur:

tələbə bileti funksiyası;

təqaüdün alınması;

internet üzərindən nağdsız ödənişlərin edilməsi;

bir sıra ictimai iaşə məkanlarında, ticarət mərkəzlərində və digər yerlərdə endirimli alış-verişin edilməsi;

gələcəkdə univeristetə giriş və çıxışın nəzarəti üçün turniketlərin aktiv edilməsi.

Qeyd edək ki, kart üzərində qeyd edilən ödəniş məlumatlarının məxfiliyi qorunmalıdır.